# GÜRCÜSTAN

SAYI 37-38 (13.407)

CÜMƏ 16 MAY 2025-ci il

Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება

"საქართველო"
"SAKARTVELO"

Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა

İctimai-siyasi həftəlik qəzet // საზოგადოებრივ-პოლიტიკური კვირეული გაზეთი

E-mail: Gurcustan_1921@mail.ru www.gurcustan.com E-mail: gurcustan2023@gmail.com


## İRAKLİ KOBAXİDZE: "ABŞ İLƏ STRATEJİ TƏRƏFDAŞLIĞI BƏRPA ETMƏYƏ TAM AÇIĞIQ"



***Gürcüstan ABŞ ilə real və konkret nəticələrə əsaslanan strateji tərəfdaşlığı bərpa etməyə hazırdır.***

Bu barədə Gürcüstanın Baş naziri İrakli Kobaxidze "Imedi LIVE" verilişində danışıb.

*"Biz ABŞ ilə strateji tərəfdaşlığın yenilənməsinə tam açığıq. İstəyirik ki, bu münasibətlər konkret nəticələr doğuran, qarşılıqlı faydaya əsaslanan tərəfdaşlıq olsun. Hazırıq ki, hər iki ölkə üçün konkret yol xəritəsi hazırlayaq, burada həm Gürcüstanın, həm də ABŞ-nin maraqları və faydaları əks olunsun",* – deyə İrakli Kobaxidze bildirib.

Baş nazirin sözlərinə görə, ölkə gözləmə mövqeyindədir:

*"Dəfələrlə bəyan etmişik ki, strateji əməkdaşlığa hazırıq. Ancaq indiyə qədər heç bir cavab verilməyib".*

## ŞALVA PAPUAŞVİLİ AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ SƏDRİ İLƏ GÖRÜŞÜB

***Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili Avropa Şurası Parlament Assambleyasının (AŞPA) sədri Teodoros Russopulos ilə görüşüb.***

Bu barədə Parlamentin mətbuat xidməti məlumat yayıb.

Məlumata görə, Şalva Papuaşvili Gürcüstandakı mövcud vəziyyət barədə danışıb, yerli seçkilərə hazırlıq prosesini nəzərdən keçirib.

*"Tərəflər Gürcüstan parlamentinin hazırda Assambleyada nümayəndə heyətinin olmaması faktını da müzakirə ediblər. Bununla bağlı Şalva Papuaşvili AŞPA-nın yanvarda qəbul etdiyi və parlament üzvlərinin nümayəndə heyətini tərk etməyə sövq edən qətnaməyə diqqət çəkib.*

*Şalva Papuaşvili Gürcüstanın Avropa Şurasının fundamental prinsip və dəyərlərinə sadiq qaldığını bildirib.*

*Şalva Papuaşvili qeyd edib ki, insanların seçiminə hörmət etmək demokratiyanın təməl daşıdır və bu prinsipə hörmətsizlik qəbuledilməzdir.*

*Tərəflər konstruktiv dialoqu davam etdirməyə hazır olduqlarını bildiriblər.*



*Görüş Aİ-nin tərəfdaş ölkələrinin parlament sədrlərinin konfransının keçirildiyi Macarıstanın paytaxtı Budapeştdə baş tutub.*

*Gürcüstan nümayəndə heyətinin üzvləri bunlardır: Parlamentin Xarici Əlaqələr Komitəsinin sədri Nikoloz Samxaradze və Avropaya inteqrasiya komitəsinin sədri Levan Maxaşvili",* - deyə məlumatda bildirilir.

### TƏHSİL

## PARLAMENT ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ GÜRCÜ DİLİNİN İCBARİ TƏDRİSİ HAQQINDA QANUN LAYİHƏSİNİ BİRİNCİ OXUNUŞDA QƏBUL EDİB



***Parlament "Ali təhsil haqqında" qanun layihəsinə birinci oxunuşda baxıb və 79 səslə yekdilliklə dəstəkləyib.***

Bu məsələni plenar iclasın müzakirəsinə Təhsil, Elm və Gənclərlə İş üzrə Komitənin sədri Qivi Mikanadze təqdim edib.

"Ali təhsil haqqında" qanuna edilən dəyişiklik ali təhsil müəssisələrində gürcü dilinin məcburi tədrisini nəzərdə tutur.

Qanun layihəsinə əsasən, ali təhsil müəssisələrinin dövlət dilində aparılan bakalavriat, müəllim hazırlığı üzrə inteqrasiya olunmuş bakalavriat və magistratura proqramları, baytarlıq ixtisası üzrə inteqrasiya magistratura proqramları, tibb/stomatoloq ixtisası üzrə magistratura proqramları ilə təhsil alan tələbələr xüsusi (iki semestr) gürcü dili kursu keçməlidirlər.

*"Bu, gürcü dilinin öyrənilməsi və onun yüksək səviyyədə tədrisinin məqsədyönlülüyü baxımından irəliyə doğru daha bir mühüm addımdır",* - deyə Qivi Mikanadze bildirib.

Gürcü dilinin icbari tədrisi növbəti tədris ilində, 2025-ci ilin sentyabrında başlayacaq.

## PARLAMENT SİYASİ PARTİYALARLA BAĞLI QƏRARI TƏSDİQLƏYİB

***80 səslə, yekdilliklə – parlament siyasi partiyaların qadağan olunması ilə bağlı qanunvericilik dəyişiklikləri paketini təsdiqləyib.***

*"Vətəndaşların siyasi birləşmələri haqqında"* və *"Konstitusiya Məhkəməsi haqqında"* qanunlara nəzərdə tutulan dəyişikliklər üçüncü oxunuşda Parlament çoxluğu tərəfindən qəbul edilib.

Layihəyə əsasən, Konstitusiya Məhkəməsi artıq qadağan olunmuş partiyanın bəyan olunmuş məqsədini, fəaliyyət mahiyyətini və şəxsi tərkibini təkrarlayan partiyanı qadağan edə bilər.

Həmçinin, parlamentə ilkin təqdim olunan layihəyə əsasən, partiyanın konstitusiyaya uyğunluğu ilə bağlı iddia üzrə qərar iddia təqdim olunduqdan sonra 9 ay ərzində verilməli idi, seçki dövründə isə bu müddət 14 günə endirilirdi.



Müzakirə prosesində bu müddət dəqiqləşdirildi – qanun layihəsinin yekun redaksiyasına əsasən, həm seçki dövründə, həm də seçkidənkənar dövrdə Konstitusiya Məhkəməsi qərarı 14 gün ərzində verməlidir.

## ABŞ VƏ QƏTƏR 1,2 TRİLYON DOLLARLIQ "İQTİSADİ MÜBADİLƏ" SAZİŞİ İMZALAYIB



*ABŞ Prezidenti Donald Trampın Qətərə rəsmi səfəri yekunlaşıb.*

Səfər çərçivəsində Ağ Ev tərəfindən yayılmış məlumata əsasən, ABŞ və Qətər arasında 1,2 trilyon dollar dəyərində "iqtisadi mübadilə" sazişi imzalanıb. Bundan əlavə, Prezident Tramp və Qətər əmiri Şeyx Təmim bin Həməd Əl-Tani iki ölkə arasında ümumi dəyəri 243 milyard dolları aşan yeni işgüzar əməkdaşlıq imkanlarını da müzakirə ediblər.

Qətər əmiri Dohada keçirdiyi mətbuat konfransında ABŞ prezidentinin Yaxın Şərqdə sülhə nail olmaq niyyətini vurğulayıb.

Xatırladaq ki, Donald Tramp mayın 14-də rəsmi nümayəndə heyəti ilə Səudiyyə Ərəbistanından Qətərə səfər edib. O, mayın 13-də Səudiyyə Ərəbistanında vəliəhd şahzadə Məhəmməd bin Salman ilə danışıqlar aparıb.

## ZELENSKİ ABŞ İLƏ BAĞLI QALMAQALLI QANUNU İMZALAYIB



***Ukrayna Prezidenti Volodimir Zelenski ABŞ və Ukrayna arasında faydalı qazıntılara dair sazişin ratifikasiyası haqqında qanunu imzalayıb.***

Bu barədə Ukrayna Ali Radası məlumat yayıb.

Qeyd edək ki, mayın 1-də Vaşinqton və Kiyev ABŞ-nin Ukraynanın mi-neral ehtiyatlarına çıxış əldə etməsi ilə bağlı saziş imzalayıb. Daha sonra isə Ukrayna Ali Radası ABŞ-la faydalı qazıntılara dair sazişi ratifikasiya edib.

## İRAKLİ XMALADZE ƏDLİYYƏ NAZİRİNİN MÜAVİNİ TƏYİN EDİLİB

***Bu barədə Ədliyyə Nazirliyi məlumat yayıb.***



*"İrakli Xmaladze ixtisasca hüquqşünasdır. Onun dövlət qulluğunda uzun illər təcrübəsi var. Ədliyyə nazirinin müavini təyin olunmazdan əvvəl o, Tbilisi merinin vitse-meri vəzifəsini tutub",* - deyə məlumatda bildirilir.

## GÜRCÜSTANDA HƏR İKİNCİ ŞƏXSİN AVTOMOBİLİ VAR

***Gürcüstanda qeydiyyata alınmış avtomobillərin sayı 1.9 milyonu ötüb.***

Xidmət Agentliyinin son məlumatına görə, ölkədə ümumilikdə 1 912 866 avtomobil qeydiyyatdan keçib.

Xatırladaq ki, 2025-ci il yanvarın 1-nə olan məlumata əsasən, Gürcüstanın əhalisi 3 704 500 nəfər təşkil edib. 2024-cü ildə bu rəqəm 3 694 600 nəfər, olub. Bununla yanaşı, Xidmət Agentliyinin son məlumatına əsasən, Gürcüstanda 1 666 841 sürücülük vəsiqəsi verilib.

Gürcüstanın Milli Statistika Xidmətinin 2025-ci ilin sonuna olan məlumatına görə, ölkədə ən çox istifadə olunan avtomobil markası MERCEDES-BENZ-dir. Növbəti yerləri isə TOYOTA, FORD və VAZ tutur.

## ŞALVA PAPUAŞVILI: "GÜRCÜSTAN Aİ-yə ÜZVLÜK YOLUNA SADİQDİR"



***"Gürcüstan hökuməti ölkənin Aİ-yə inteqrasiyası istiqamətində ən çox iş görmüş hakimiyyətdir və bu yolun davam etdirilməsində qərarlıdır."***

Bu barədə Macarıstanın paytaxtı Budapeştdə Avropa İttifaqının üzv və tərəfdaş ölkələrinin parlament sədrlərinin konfransında çıxış edən Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili bildirib.

Onun sözlərinə görə, təəssüf ki, Avropa İttifaqının bəzi strukturlarından seçilmiş parlamentə qarşı direktivlər və birtərəfli öhdəliklər təyin etməyə yönəlmiş tendensiyalar müşahidə olunur:

*"Avropa İttifaqının mərkəzi strukturlarının həddindən artıq gücləndirilməsi, bəzən üzv ölkələrin özünəməxsus siyasi, iqtisadi və mədəni xüsusiyyətlərini nəzərə alan qərarların qəbul edilməsinə mane ola bilər. Gürcüstan bu yolda irəliləməyə sadiqdir. Mən elə bir hökuməti təmsil edirəm ki, bu prosesdə Gürcüstanın irəliləyişi üçün ən çox çalışan tərəf olub."*

Papuaşvili Aİ-nin bəzi tələblərini tənqid edərək, xüsusilə də xarici aktorların iştirakı ilə hakimlərin dürüstlüyünün yoxlanmasını nəzərdə tutan ***"vetinq (yoxlama) mexanizmini"*** Gürcüstanın suverenliyinə müdaxilə kimi qiymətləndirib.

*"Bütün hakimiyyət qollarının xarici aktorlar tərəfindən formalaşdırılması milli suverenliyin əsasına zidd olardı. Mən inanmıram ki, Aİ-yə üzv hər hansı bir ölkə belə bir müdaxiləyə razılıq verərdi."*

O, həmçinin əlavə edib ki, demokratik plüralizm prinsipinə əsaslanan Aİ-nin qərarları hər bir üzv dövlətin və tərəfdaşın maraqlarına və çağırışlarına hörmət etməlidir:

*"Demokratiya müzakirə deməkdir, zorla qəbul etdirilən qərarlar deyil. Konsensus hər kəsin səsini nəzərə alır. Milli dövlətlər birliyində kiçik ölkələrin səsi də böyük ölkələrinki qədər eşidilməlidir, çünki həqiqət yalnız sayla ölçülmür."*

Papuaşvili çıxışında Aİ-nin bəzi orqanlarının təklif etdiyi qərar qəbuletmə mexanizminin – konsensusu əvəzləyən çoxluqla qərarların qəbulunu – tənqid edərək, belə yanaşmaların kiçik ölkələrin maraqlarına zərər vura biləcəyini vurğulayıb.

## RİKOTİ YOLU İLƏ BAĞLI AÇIQLAMA

***Rikotinin qalan 4 kilometrlik (Çumateleti-Xevi) hissəsində intensiv işlər davam etdirilir.***

Bu barədə məlumatı İnfrastruktur Nazirliyi yayıb.

Nazirliyin verdiyi məlumata görə, 4 kilometrlik hissənin şərq-qərb istiqamətində 2 zolaqlı yolun tikintisi tezliklə başa çatacaq.

*"Məlum hissədə düzəldilmiş 2 zolaqda hər iki istiqamət üzrə nəqliyyat müvəqqəti olaraq hərəkət edəcək və köhnə yolun yenidənqurma - bərpa işləri başlanacaq. Həmin sahədə 3 zolaqlı yol və 5 yeni körpü inşa ediləcək. Köhnə yolun yenidənqurma - bərpa işləri tamamlandıqdan sonra, Rikotinin 52 kilometrlik magistral yolu nəqliyyat üçün tam açıq olacaq.*



*Rikoti magistral yolunun tikintisi layihəsi çərçivəsində ümumilikdə 52 kilometrlik 4 zolaqlı magistral yol, 51 tunel və 97 körpü inşa edilir. Hazırda nəqliyyat artıq 48 kilometrlik yeni 4 zolaqlı yoldan (49 tunel və 88 körpü ilə) istifadə edir"* , - deyə nazirliyin yaydığı məlumatda qeyd olunub.

## ƏRDOĞAN PKK-nin LƏĞVİNİ BELƏ ŞƏRH ETDİ

***Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Nazirlər Kabinetinin iclasından sonra verdiyi açıqlamada bir sıra vacib məsələlərə toxunub.*** O, PKK-nın buraxılması ilə bağlı verilən qərara dair ilk dəfə şərh verərək bu addımı ***"Terrorsuz Türkiyə"*** hədəfinə doğru atılan mühüm bir addım kimi qiymətləndirib.

Ərdoğan çıxışında bunları qeyd edib:

*"Bu gün daha bir kritik mərhələni keçdik. Mən bu qərarı mühüm dönüş nöqtəsi kimi qiymətləndirirəm. Yeni dövrün qapıları açılır, qardaşlığımıza saplanan qanlı xəncər çıxarılır. Ən böyük qazanan isə şəhidlərin ailələridir".*

Ərdoğan əlavə edib ki, hökumət və Xalq Alyansı olaraq Türkiyəni 40 ildir davam edən terror bəlasından qurtarmaq üçün əzmkar olduqlarını bir daha bəyan edirlər.



O, həmçinin Türk Əsri vizyonu, bölgədəki sülh təşəbbüsləri, iqtisadi sabitlik və beynəlxalq münasibətlərdəki mövqelərlə bağlı fikirlərini də bölüşüb. Prezident bildirib ki, Türkiyə bütün böhranları uğurla idarə edən ölkə olaraq həm regionda, həm də dünyada nüfuzunu daha da artırır:

*"Türkiyənin kompası yalnız parlaq və firavan üfüqləri göstərir. İnşallah bu çətin dövrdən də başı dik, daha da güclü çıxacağıq,"* - deyə o vurğulayıb.

Ərdoğan həmçinin Rusiya, Ukrayna və ABŞ daxil olmaqla bir çox ölkələrlə davam edən diplomatik təmaslara da toxunub və Türkiyənin sülh və sabitliyin təmin olunmasında mərkəzi rol oynadığını bildirib.

## AXMETA BƏLƏDYYƏSİNİN BİR SIRA KƏNDLƏRİNƏ YAĞAN GÜCLÜ DOLU CİDDİ FƏSADLAR TÖRƏDİB



***May ayının 12-də Axmeta bələdiyyəsinin bir neçə kəndinə güclü dolu yağıb.***

Təbiət hadisəsi zamanı kənd sakinlərinə məxsus meyvə ağaclarına, üzüm bağlarına və digər bitkilərə ciddi ziyan dəyib.

Yerli sakinlərin sözlərinə görə, dolu 20 dəqiqəyə yaxın davam edib.

Axmeta meriyasından verilən məlumata görə, dəymiş ziyanla bağlı məlumat, itkilərin hesablanması komissiyası işini başa vurduqdan sonra açıqlanacaq.

## GÜRCÜSTANDA ƏN ÇOX YAYILAN SOYADLARIN SİYAHISI AÇIQLANIB

***Gürcüstanda ən çox yayılmış ad və soyadların reytinqi ildən-ilə dəyişir, buna baxmayaraq onlardan bəziləri hələ də öz mövqeyini qoruyur.***

Dövlət Xidmətlərinin İnkişafı Agentliyi ölkədə ən çox yayılmış soyadların siyahısını açıqlayıb.

Ölkə üzrə *Məmmədov* və *Beridze* soyadı ən çox rast gələnən soyad olaraq qalır.

Sayları 10000-dən çox olan soyadların statistikasını sizlərə təqdim edirik:

- Beridze - 30 113;
- Məmmədov və Məmmədova - 28 872
- Kapanadze - 19 243;
- Gelaşvili - 18 323;
- Maisuradze - 16 004;
- Qiorqadze - 14 205;
- Bolkvadze - 13 185;
- Lomidze - 13 118;
- Tsiklauri - 12 926.



## Sitat guşəsi



"Təbii ki, yerli özünüidarəetmə seçkilərində müxalifətin heç bir şansı yoxdur. Biz 64 bələdiyyənin hamısında həm mer, həm də bələdiyyə şurası seçkilərində qalib gəlməyi planlaşdırırıq və bu, qaçılmazdır. Hamınız görürsünüz hakim partiyanın reytinqi necədir, müxalifət partiyalarının reytinqləri necədir, buna görə də bu nəticənin əldə olunmasına heç nə mane ola bilməz".

**İrakli Kobaxidze,**
**Gürcüstanın Baş naziri.**



"İkinci Dünya müharibəsi 60 milyon insanın həyatına son qoydu. Hazırkı dramatik ssenarıdə, Papa Fransiskin dediyi kimi, mən dünya liderlərinə səslənirəm: daha müharibə olmasın".

**XIV Leo,**
**Roma Papası.**



"Rusiya prezidenti Putin Ukrayna ilə atəşkəs istəmir, lakin qan tökülməsinə mümkün son qoymaq üçün danışıqlar aparmaq üçün cümə axşamı Türkiyədə görüşmək istəyir. Ukrayna bununla dərhal razılaşmalıdır".

**Donald Tramp,**
**ABŞ-nin Prezidenti.**



"Başda əziz Qardaşım, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan olmaqla bütün qardaş Türkiyə xalqını PKK terror qruplaşmasının özünü ləğv etmək və silahı yerə qoymaq qərarı münasibətilə ürəkdən təbrik edirəm.

Əziz Qardaşımın bəyan etdiyi "Terrorsuz Türkiyə" hədəfinə çatmaqda vacib mərhələ olan bu hadisə dövlətçilik yolunda ölkədə aparılan qətiyyətli siyasətin nəticəsi, güclü liderliyin və sarsılmaz iradənin, milli birliyin və həmrəyliyin təntənəsidir.

Alınmış qərarın tam icrası istiqamətində Türkiyə dövlətinə və xalqına uğurlar arzulayıram".

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti..**



"Bu gün Qərb ölkələri Kiyevə hərbi potensialını bərpa etmək və Rusiya ilə qarşıdurmanı davam etdirmək üçün fasilə vermək məqsədilə 30 günlük atəşkəsə nail olmağa çalışır".

**Mariya Zaxarova,**
**Rusiya XİN-in sözçüsü.**



"Biz müharibəyə can atmadığımızı sübut etmək üçün danışıqlar aparırıq. İran heç vaxt nüvə silahına sahib olmaq istəməyib və çalışmayacaq, lakin heç vaxt dinc nüvə enerjisindən imtina etməyəcək".

**Məsud Pezeşkian,**
**İran İslam Respublikasının Prezidenti.**

## REGİON XƏBƏRLƏRİ

### Rustavi: ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 102-ci İLDÖNÜMÜ QEYD EDİLİB



***Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü ilə əlaqədar Rustavi Təhsil və Mədəniyyət Mərkəzində tədbir keçirilib.***

Tədbir iştirakçıları öncə dahi şəxsiyyətin Rustavidəki abidəsini ziyarət edərək önünə əklil qoyub, gül dəstələri düzüblər.

Sonra tədbir Rustavi Təhsil və Mədəniyyət Mərkəzinin ofisində davam edib. Mərkəzin rəhbəri Raidə Dərziyeva iştirakçıları salamlayaraq Ulu Öndərin xatirəsinin əziz tutulmasının bütün azərbaycanlıların vəfa borcu olduğunu bildirib.

İctimai xadim, şair-publisist Rafiq Hümmət "Heydər Əliyevin dəqiq strategiyası" adlı məruzəsində bu strategiyanın 44 günlük Vətən müharibəsindəki qələbədə mühüm əhəmiyyətindən danışıb.

Digər çıxışçılar öz növbələrində müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin Azərbaycan xalqının həyatındakı və Azərbaycan-Gürcüstan münasibətlərindəki əvəzsiz xidmətlərindən bəhs ediblər.

### Qardabani: ULU ÖNDƏRİN XATİRƏSİ ANILIB



***10 may 2025 – ci il Azərbaycan xalqının Ümummilli lideri, sağlığında özünə ölməzlik qazanmış Heydər Əlirza oğlu Əliyevin doğum gününün 102-ci ildönümü Qardabani şəhərində təntənə ilə qeyd olunmuşdur.*** Qardabani şəhər sakini, təəssübkeş və xeyriyyəçi eloğlumuz Şakir Binnət oğlu Mustafayevin təşəbbüsü və rəhbərliyi ilə Rustavi şəhərində Ulu Öndərin abidəsi önünə təzə çiçəklər və gül dəstəsi qoyulmuş, onun xatirəsi, sükutla yad edilmişdir. Tədbirdə Qardabaninin kəndlərindən, şəhərin özündən gənclər, müəllimlər, din xadimləri və Heydərsevərlər iştirak etmişlər. Vaxtanqisi kənd sakini, müəllim və şair Bədrəddin Vəliyev, Qardabani şəhər sakini, "Şərəf" ordenli müəllim Firdovsi İsgəndərov və tədbirin təşkilatçısı Şakir Mustafayev çıxış edərək, Ulu Öndərin həyat və fəaliyyətindən, yeni Azərbaycan dövlətinin qurucusu və memarı kimi Azərbaycan xalqı qarşısında əvəzsiz xidmətlərindən, gürcü və Azərbaycan xalqlarının dostluğuna verdiyi töhfə və dəyərlərdən danışmışlar. Tədbirin sonunda iştirakçılar çay süfrəsi arxasında Heydər Əliyevin xidmətləri haqqında söhbətlərini davam etdirmiş, hamı bir ağızdan Ulu Öndərə rəhmət diləmiş və onun hər bir azərbaycanlı üçün əziz və fenomen şəxsiyyət olduğunu dəfələrlə təkrar-təkrar dilə gətirmişlər.

### Marneuli: ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 102-ci İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ TƏDBİR KEÇİRİLİB

***10 may 2025-ci il tarixində, Marneuli Mədəniyyət Evində Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş "Müstəqil Azərbaycan Konstitusiyasının müəllifi Ümummilli Lider Heydər Əliyev - 102 il" adlı tədbir keçirilib.***

Tədbirdə dövlət qurumlarının nümayəndələri, ictimaiyyət və gənclər iştirak ediblər.

Tədbir "Tea House"un nəzdində faliyyət göstərən azyaşlıların "Gürcü dili Oxu Klubu"nun üzvlərinin Gürcüstan və Azərbaycan dövlət himnlərini oxuması ilə başlayıb. Tədbiri giriş sözü ilə Azərbaycanın Gürcüstandakı Fövqəladə və Səlahiyyətli səfiri Faiq Quliyev açaraq Ulu Öndərin həyatı, fəaliyyəti, quruculuq işləri və s. haqda ətraflı danışıb. Tədbirdə çıxış edən Marneuli meri Kənan Ömərov Heydər Əliyevin Gürcüstan və Azərbaycan əlaqələrinin inkişafına verdiyi töhfələrdən və rolundan, "İnkişaf və Təhsil Mərkəzi"nin direktoru Emin Əhmədov tədbirin önəmindən, gənclərin məlumatlanması, tədbirdə iştiraklarının vacibliyi və növbəti illərdə həyata keçiriləcək fəaliyyətlərdən danışıb. Daha sonra gənc istedad, müğənni Şaban Məmmədov, İamze Caxeli, Marneuli Mədəniyyət Mərkəzinin musiqi kursu üzvü Nino Oloşvili gürcü və azərbaycan dillərində ifalar ediblər. Tədbirdə həmçinin "Tea House" un nəzdində fəaliyyət göstərən "Buta" rəqs ansamblının gürcü və Azərbaycan milli rəqsləri təqdim olunub.

Tədbir çərçivəsində, gənclərin təhsil, mədəniyyət və idman sahələrində inkişafına verdikləri töhfələrə görə müxtəlif mərkəz və təhsil ocaqlarının rəhbərləri təltif olunub, uğur qazanmış gənclərə diplomlar təqdim olunub, eləcə də 2024-cü il ərzində "Tea House"da kursları uğurla başa vurmuş 102 nəfər iştirakçıya sertifikatlar təqdim olunub. Tədbirin yekununda həmin gənclər tərəfindən havaya 102 ədəd şar buraxılıb. Tədbirin aparıcılığı Arzu Əliyeva tərəfindən edilib.



Tədbir Azərbaycanın Gürcüstandakı Səfirliyinin dəstəyi və "İnkişaf və Təhsil Mərkəzi"nin təşkilatçılığı ilə həyata keçirilib.

## BEYNƏLXALQ HƏYAT

### NBC: TRAMPLA NETANYAHU ARASINDA MÜNASİBƏTLƏR İRAN VƏ QƏZZAYA GÖRƏ PİSLƏŞİB



***ABŞ prezidenti Donald Tramp və İsrailin baş naziri Benyamin Netanyahu arasında münasibətlər son həftələr iki ölkənin İran və Fələstin məsələsində fərqli mövqeləri səbəbindən gərginləşib.***

Bu barədə "NBC News" kanalı məlumat yayıb.

Qeyd olunub ki, Netanyahu İranın nüvə obyektlərinin fiziki məhv edilməsinə hazırlaşır, Tramp isə nüvə proqramı ilə bağlı Tehranla razılığa gəlmək istəyir.

Qəzza zolağı məsələsində Amerika lideri atəşkəsin bərqərar olmasını tələb edir, İsrail isə Qəzza zolağında hərbi əməliyyatları davam etdirmək niyyətindədir.

Qeyd olunur ki, Tramp İsrailin Fələstin anklavındakı hərbi əməliyyatlarını "boş səylər" hesab edir. Eyni zamanda, İranın nüvə proqramı məsələsi ABŞ və İsrail arasında ən böyük gərginliyi yaradır.

"NBC News" qeyd edir ki, Netanyahu özəl olaraq İranla hər hansı danışıqların "vaxt itkisi" olduğu fikrini ifadə edib. İsrail də hesab edir ki, İran hazırda ən zəif və ən həssas vəziyyətdədir və danışıqlar Tehrana mövqelərini gücləndirmək üçün vaxt verə bilər.

### PKK ÖZÜNÜ LƏĞV EDİB



***PKK terror təşkilatı özünü ləğv edib.***

Bu barədə "TRTHaber" xəbər verir.

Məlumata görə, 1984-cü ildə terror fəaliyyətinə başlayan PKK terror təşkilatı silahlarını yerə qoyduğunu açıqlayıb.

"5-7 may tarixlərində toplanan 12-ci qurultayımız uğurla başa çatıb. Qurultayda PKK-nın ləğv edilməsi və silahlı mübarizə üsuluna son qoyulması ilə bağlı qərar verilib, PKK adı altında aparılan işlərə son qoyulub", - deyə PKK-nın bəyanatında qeyd edilib.

### ABŞ VƏ ÇİN TİCARƏT MÜHARİBƏSİNDƏ "ATƏŞKƏS"



***ABŞ və Çin arasında uzun müddətdir davam edən ticarət müharibəsi İsveçrədə iki gün davam edən gərgin danışıqlardan sonra böyük dönüş nöqtəsinə çatıb.***

Tərəflər qarşılıqlı olaraq tətbiq etdikləri yüksək gömrük rüsumlarının böyük bir hissəsini 90 gün müddətinə dayandıracaqlarını açıqlayıblar.

Danışıqlardan sonra verilən ortaq açıqlamaya görə, Çin tərəfi ABŞ-dən idxal edilən məhsullara tətbiq edilən vergini 125 faizdən 10 faizə, ABŞ administrasiyası isə Çin məhsullarına tətbiq edilən vergini 145 faizdən 30 faizə endirib.

Bu qarşılıqlı endirimlər 90 gün ərzində qüvvədə olacaq.

Bununla belə, ABŞ-nin bəzi məhsullara, xüsusən də fentanil və oxşar təhlükəli maddələrə aid etdiyi əlavə vergi qaydaları qüvvədə qalacaq.

Birgə bəyannamədə həmçinin vurğulanıb ki, tərəflər iqtisadi və ticari əlaqələri davamlı olaraq qiymətləndirəcəkləri yeni və daimi dialoq mexanizmi yaradacaqlar.

### QƏZZADA ÖLƏNLƏRİN SAYI 53 MİNƏ ÇATIR



***İsrailin Qəzza zolağının şimalında məktəb binasına endirdiyi hava zərbəsi nəticəsində azı 15 nəfər həlak olub.***

Bu barədə Qətərin "Al Jazeera" telekanalı məlumat yayıb.

Qeyd olunub ki, İsrail Hərbi Hava Qüvvələri Fələstin anklavının şimalında yerləşən Cəbəliya şəhərindəki qızlar məktəbinə silsilə zərbələr endirib. Bombalama nəticəsində içərisində uşaqlar da daxil olmaqla ən azı 15 sakin həlak olub.

Kanal həmçinin bildirib ki, son 24 saat ərzində İsrailin Qəzza zolağına endirdiyi aviazərbələr nəticəsində ən azı 40 fələstinli ölüb, 80-dən çox insan yaralanıb.

Bundan sonra 2023-cü ilin oktyabrında Fələstin-İsrail münaqişəsinin başlamasından bu yana bölgədə ölənlərin ümumi sayı 52 829 nəfərə yüksəlib, hərbi əməliyyatlar zamanı daha 119 554 fələstinli yaralanıb.

# DİLİMİZİ DAHA YAXŞI ÖYRƏNƏK!

*(Əvvəli ötən sayımızda)*




Qəzetimizin 2 aprel 2021-ci il tarixli 23-24 saylı buraxlışında "Hörmətli oxucular!" sərlövhəli yazının davamı olaraq Azərbaycan dilinin zənginliyini, şirinliyini duymaq, bilmək, onu təbliğ etmək və geniş oxucu kütləsini maarifləndirmək üçün gündəlik danışıq vaxtı işlədilən və az işlədilən sözlərin mənaca təhlilinin oxuculara təqdimatını davam etdiririk:

**HEY²** Çağırış və ya müraciət bildirən nida – ey, ay.

*Rüstəm səsi dolusu: – Ay Qəhrəman, hey! – deyə oğlunu çağırırdı.*

S. Rəhimov.

**HEY³** *əd.* Bir şeyin daim, arasıkəsilmədən və ya tez-tez təkrarlandığını və ya çox davam etdiyini bildirir. *Yağış hey yağır. Uşaq hey ağlayır. Hey xəstələnmək. Hey donquldanmaq.*

*Həcər baxdıqca bu səmtlərə hey baxdı.*

S. Rəhimov.

**HEYBƏ** *is.* Çiyindən, bəzən də atın tərkindən aşırılan kiçik xurcun.

*Tahir xalı kimi rəngbərəng iplərdən toxunmuş balaca dolu heybəsini çiyninə aldı…*

M. Hüseyn.

**HEYBƏCİK** *is.* Kiçik heybə. *Heybəciyi çiyninə salmaq.*

**HEYBƏT** *is. [ər.]* Qorxu və eyni zamanda hörmət hissi oyandıran hal, görkəm.

*Çalışqan, namuslu Ayrım qızının üzündə kişilərə məxsus bir heybət vardı.*

A. Şaiq.

//Zəhm, vahimə, dəhşət.

*Oğlanın heybətindən hərə bir tərəfə dağıldı.* (Nağıl).

**HEYBƏTLİ** *sif.* Heybət doğuran, hörmət hissi ilə bərabər qorxu hissi doğuran; zəhmli. *Heybətli görkəm. Heybətli baxış.*

*Əlyarov dişini qıcayıb* [Ərknazın] *üzünə daha heybətli bir nəzər saldı*.

M. Hüseyn.

**HEYƏT** *is. [ər.]* 1. Hər hansı bir təşkilatın, kollektivin tərkibini təşkil edən adamlar toplusu; tərkib. *Redaksiya heyəti. Komissiyanın heyətində dəyişiklik.* – [Çingiz gənclərə:] *Müsamirə düzəltmək üçün ayrıca bir heyət seçməlidir*

Çəmənzəminli.

2. Xidmətinə, ixtisasına və s. görə bir qrup təşkil edən adamlar. *Rəhbərlik edən heyət* (rəhbərlər). *Komanda heyəti* (komandirlər). *Müəllim heyəti* (müəllimlər).

[Sədr:] *Məhkəmə heyəti müttəhim Baxışın da qiyamçılar hərəkatı ilə əlaqəsi olduğunu təsdiq edir.*

C. Cabbarlı.

3. *klas.* Görkəm, görünüş, şəkil, surət, qiyafət.

*Xubani-hərəm* [hökmdarı] *bu heyətdə görəndə az qaldılar qəhqəhə etsinlər.*

M. F. Axundzadə·

**HEYİF** *əd. [ər.]* bax **təəssüf.**

*Əfsus, qocaldım, ağacım düşdü əlimdən,*
*Səd heyif cavanlıq!*

M. Ə. Sabir.

**◊Heyfi gəlmək** – 1) bir şeyi xərcləmək, işlətmək, vermək istəməmək, əsirgəmək.

*Bardaqdakı sərin suya Səməndərin heyfi gəlirdi.*

B. Bayramov.

2)yazığı gəlmək. [Mirzə Sadıq:] *Həqiqətən* [Fərhada] *çox heyfim gəlir.*

C. Cabbarlı.

**HEYİFLƏNMƏK** bax **heyifsilənmək.**

*Mən həmişə heyiflənərdim ki, təhsil etməmişəm*.

C. Məmmədquluzadə.

**HEYİFSİLƏNMƏK** 1. bax **təəssüflənmək.** *Amma mən ona heyifsilənirəm ki, bu sözlər ərəbcə yazılıb və camaat qanmayacaq.*

C. Məmmədquluzadə.

2. Heyfi gəlmək, əsirgəmək (əsasən inkarda işlədilir).

[Mürsəl:] *Canavar ovuna gedən gülləyə heyifsilənməməlidir.*

Ə. Vəliyev.

**HEYHAT** *nida[ər.]*Əfsus,təəssüf,heyif.

*Şeirsiz, nəğməsiz gəzib bir ara,*
*Heyhat, oynamamış könlüm yerindən.*

M. Müşfiq.

**HEYKƏL** *is. [ər.]* 1. Heykəltəraş tərəfindən daşdan, tuncdan və s. - dən hazırlanmış insan və ya heyvan surəti. *Mərmər heykəl. Füzulinin heykəli.*

*– Yaşıl məhəccərli dördkünc bağçada Nizaminin tuncdan tökülmüş miniatür heykəli qoyulmuşdu.*

M. Hüseyn.

2. *is.* Cindən, həmzaddan və bədnəzərdən qorumaq üçün uşaqların boynuna asılan dualı, muncuqlu asqı.

**◊ Heykəl kimi** – müqəvva kimi, hərəkətsiz.

*Mübaşir Məmməd, heykəl kimi hərəkətsiz durmuş qıza, onun şümşad boyuna nəzər saldı…*

M. İbrahimov.

**HEYKƏLTƏRAŞ** *is. [ər.* heykəl və *fars.* …təraş] Heykəltəraşlıq əsərləri yaradan sənətkar. *Azərbaycan heykəltəraşları monumental abidələr yaratmışlar.*

**HEYKƏLTƏRAŞLIQ** *is.* 1. Təsviri sənətin qazıma, yonma, kəsmə, yapma və ya tökmə üsulu ilə həcmli təsvirlər (heykəl, büst, barelyef və s.) yaradan növü.

*Klassika dövrü yunan heykəltəraşlığı dünya incəsənətinin ən maraqlı hadisələrindən biridir. – Biz eyni sözləri musiqi haqqında da, rəssamlıq və heykəltəraşlıq, memarlıq haqqında da deyə bilərik.*

İ. Əfəndiyev.

2. Daşdan, tuncdan və b. materiallardan düzəldilmiş belə sənət əsəri. *Müsabiqəyə … heykəltəraşlıq əsərləri də təqdim edilmişdir.*

// Belə əsərlərin toplusu. *Azərbaycan heykəltəraşlığı.*

**(Davamı var)**

**Hazırladı: Xaləddin Yolçuyev.**

# DÖVLƏT DİLİNİ ÖYRƏNMƏLİYİK!



***Hörmətli oxucular!***

Gürcüstanda yaşayan etnik azlıqların dövlətçiliyin əsaslarının möhkəmləndirilməsi, ölkənin ictimai-siyasi həyatında fəal iştirak etməsi, cəmiyyətə inteqrasiya olunmaqla onun tamhüquqlu vətəndaşı olması üçün gürcü dilini və tarixini bilmələri vətəndaşlıq borcudur. Dövlətin "Vətəndaş Bərabərliyi və İnteqrasiya üzrə 2021-2030-cu illər üçün dövlət strateji proqramı"na əsasən Gürcüstanda yaşayan etniklər 2030-cu ilədək gürcü dilini mənimsəməlidirlər. “Gürcüstan” qəzeti də yuxarıda qeyd olunanları nəzərə alaraq, bu mühüm işə öz töhfəsini vermək üçün gürcü dilini öyrənmək istəyənlərə yardım etmək məqsədilə yeni rubrika açıb. Bu rubrika altında siz gürcü dilinin əlifbasından başlayaraq dilin bütün özəllliklərinə bələd olacaqsınız.

## Gürcü əlifbası

**Gürcü əlifbası 33 hərfdən ibarətdir və aşağıdakı ardıcıllıqla düzülür.**

| Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı | Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı | Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı |
|---|---|---|---|---|---|---|---|---|
| ა | a | ან | მ | m | მან | ღ | ğ | ღან |
| ბ | b | ბან | ნ | n | ნარ | ყ | ğ* | ყარ |
| გ | q | გან | ო | o | ონ | შ | ş | შინ |
| დ | d | დონ | პ | p* | პარ | ჩ | ç | ჩინ |
| ე | e | ენ | ჟ | j | ჟან | ც | ≈ ts* | ცან |
| ვ | v | ვინ | რ | r | რაე | ძ | ≈ dz | ძილ |
| ზ | z | ზენ | ს | s | სან | წ | ≈ ts | წილ |
| თ | t | თან | ტ | t* | ტარ | ჭ | ≈ tç | ჭარ |
| ი | i | ინ | უ | u | უნ | ხ | x | ხან |
| კ | k* | კან | ფ | p | ფარ | ჯ | c | ჯან |
| ლ | l | ლას | ქ | k | ქან | ჰ | h | ჰაე |

**Qeyd: ≈ işarəsi "təxmini tələffüz"ü göstərir.**
*** işarəsi "sərt tələffüz"ü göstərir.**

Gürcü dili əlifbasında 5 sait : ა(a), ე(e), ი (i), (o) ო, უ (u) var, qalanı samit səslərdir. Gürcü dilində 8 spesifik xüsusiyyətli samit isə Azərbaycan dilində yoxdur. Onlar Azərbaycan dilində aşağdakı qaydada tələffüz olunur.

**კ - k*** (sərt tələffüz) **პ - p*** (sərt tələffüz) **ტ - t*** (sərt tələffüz)
**ყ - ğ*** (sərt tələffüz) **ც - ts *** (sərt tələffüz ) **წ ≈ ts** (təxmini tələffüz)
**ჭ ≈ tç** (təxmini tələffüz) **ძ ≈ dz** (təxmini tələffüz)

Azərbaycan dilindən fərqli olaraq, gürcü dilinin orfoqrafiyasında böyük və kiçik hərflər yoxdur. Çap və yazı hərfləri şəkil etibarı ilə eynidir. Oxunduğu kimi də yazılır.

* * *

**წიგნი – მეგზური ცხოვრების გზაზე** (Tsiqni meqzuri tsxovrebis qzaze )

**Kitab – həyat yolunda bələdçi**

**წიგნი ერთ-ერთი ყველაზე ძვირფასი საუნჯეა, რომელიც ადამიანის ცხოვრებაში მნიშვნელოვან ადგილს იკავებს.** (Tsiqni ert-erti ğvelaze dzvirpasi sauncea, romelits adamianis tsxovrebaşi mnişvnelovan adqils ikavebs.) **– Kitab insan həyatında mühüm yer tutan ən dəyərli xəzinələrdən biridir.**

**ის გვიხსნის წარსულის, აწმყოსა და მომავლის კარს.** (İs gvixsnis tsarsulis, atsğmosa da momavlis kars.) **– O, bizə keçmişin, bu günün və gələcəyin qapılarını açır.**

**წიგნის კითხვა მხოლოდ დროის გატარება არ არის – ეს არის ცოდნით გამდიდრება და თვალსაწიერის გაფართოება.** (Tsiqnis kitxva mxolod drois qatareba ar aris – es aris tsodnit qamdidreba da tvalsatsieris qapartoeba.) – **Kitab oxumaq sadəcə vaxt keçirmək deyil, biliklərlə zənginləşmək, dünyagörüşünü artırmaqdır.**

**წიგნი ფორმირებს ჩვენს აზროვნებას, გვხდის გონიერ და გულისხმიერ ადამიანად.** (Tsiqni pormirebs çvens azrovnebas, qvxdis qonier da qulisxmier adamianad.) **– O, düşüncəmizi formalaşdırır, bizi daha ağıllı və anlayışlı insan edir.**

**სამწუხაროდ, ტექნოლოგიის სწრაფი განვითარება დღეს ზოგიერთს წიგნისგან აშორებს.** (Samtsuxarod, teknoloqiis stsrapi qanvitareba dğes zoqierts tsiqnisqan aşorebs.) **– Təəssüf ki, bu gün texnologiyanın sürətli inkişafı ilə bəziləri kitabdan uzaq düşüb.**

**თუმცა, იმ სიამოვნებას, რასაც წიგნი გვაძლევს, ვერც ერთი ეკრანი ვერ ჩაანაცვლებს.** (Tumtsa, im siamovnebas, rasats tsigni qvadzlevs, verts erti ekrani ver çaanatsvlebs.) **– Lakin kitabın verdiyi zövqü heç bir ekran əvəz edə bilməz.**

**ის მოგვიწოდებს ვიყოთ მოთმინებით, დაფიქრებულად და პასუხისმგებლობით სავსე ადამიანები.** (İs moqvitsodebs viğot motminebit, dapikrebulad da pasuxismqeblobit savse adamianebi.) **– O, bizi səbirli, düşüncəli və məsuliyyətli olmağa çağırır.**

**ბავშვობიდან კითხვის მოყვარული ადამიანი მომავალში წარმატებულ პიროვნებად ყალიბდება.** (Bavşvobidan kitxvis moğvaruli adamiani momavalşi tsarmatebul pirovnebad ğalibdeba.) **– Uşaqlıqdan oxumağa vərdiş edən insan gələcəkdə uğurlu bir şəxsiyyət kimi formalaşır.**

**რადგან ის, ვინც კითხულობს, უკეთ ესმის როგორც საკუთარი თავი, ისე მთელი სამყაროც.** (Radqan is, vints kitxulobs, uket esmis roqorts sakutari tavi, ise mteli samğarots.) **– Çünki oxuyan insan həm özünü, həm də dünyanı daha yaxşı anlayar.**

**წაკითხული ყოველი წიგნი ნიშნავს კიდევ ერთ ნაბიჯს წინ.** (Tsaqitxuli ğoveli tsiqni nişnavs kidev ert nabics tsin.) **– Oxunan hər kitab bir addım irəli getmək deməkdir.**

**წიგნი – ეს არის ერთდროულად მეგობარი, მასწავლებელი და უხმო ცხოვრების მეგზური.** (Tsigni – es aris ertdroulad meqobari, mastsavlebeli da uxmo tsxovrebis meqzuri.) **–Kitab – həm dostdur, həm müəllim, həm də səssiz bir həyat yoldaşıdır.**

GÜRCÜSTAN MƏTBUATI NƏDƏN YAZIR?

www.sak.ge • sak@sak.ge
№2 (9834) 2025

12 may 2025-ci il "SAKARTVELOS RESPUBLİKA"

## Şalva Papuaşvili: "Bəli, bu bizim də Vətən Müharibəmiz olub!" (ixtisarla)

Gürcüstan Parlamentinin sədri Şalva Papuaşvili faşizm üzərində qələbə günü münasibətilə sosial şəbəkədə post yayınlayıb.

"Əlimə alıram qələmi, sizi qəlbdən salamlayıb yazıram, sizin üçün darıxaraq....", - 18 fevral 1945-ci ildə mənim ulu babamın cəbhədən yazdığı bu məktub sonuncu olub.

9 mayda biz Gürcüstanda Qələbə Gününü qeyd edirik, 1945-ci ildə nasist Almaniyası üzərində çalınan qələbəni. Bu qələbəyə gedən yolda Gürcüstandan 300 min insan həlak olub, bu da, ölkə əhalisi nisbətindən, ən böyük itki olub. Bu, bizim və əcdadlarımızın dünyanın ən böyük şərinə qarşı mübarizədə ödədiyi qiymətdir.

Gürcüstanda elə bir ailə yoxdur ki, ata, baba, ulu baba faşizmə qarşı mübarizədə iştirak etməmiş olsun. Müharibə iştirakçısı veteranlar hələ sağdırlar.

Ötən 80 il ərzində 9 mayın qeyd olunması bizim ayrılmaz ənənəmizə, bugünkü təhrif olunmuş dünyada dünən kim olduğumuzun, harada durduğumuzun, nə uğrunda mübarizə apardığımızın və bu gün kim olduğumuzun canlı xatırlatmasına çevrilib.

Bu gün biz Gürcüstanın tarixini, keçmişimizi və Qə-ləbə Gününün önəmini azaltmağı özlərinin həyat missiyasına çevirən insanları görürük. Keçmişi yenidən düşünmək bəhanəsi ilə Qələbə Gününün düzgün tarixi 8 və ya 9 may olduğu, Qələbə Gününün necə adlandırılması, Stalinin xatirəsinin yad edilib-edilməməsi barədə davamlı çağırışlar və min bir buna bənzər təhriflər, boş söhbətlər keçmişi dərk etmək yox, onu yenidən yazmaq, Sovet İttifaqında yaşamağa görə milli müqəssirlik hissini aşılayaraq milli iradəni məhv etmək, yad təsir altında salaraq, süni şəkildə qurulmuş ideologiyanın bərqərar olması üçün münbit zəmin yaratmaq məqsədini güdür.

Əslində anti-Avropa, anti-demokratik, cinayətkar rejim yaratmaqda, ölkəni bədbəxt etməkdə birbaşa məsuliyyət daşıyan insanlar və bu ideologiyanı daşıyan sosial media fəalları əlbir olub 9 Mayın mənasını dəyişməyə çalışırlar.

9 May Gürcüstanın öz layiqli töhfəsini verdiyi böyük qələbə günüdür və belə olaraq qalacaq. Bu töhfə, bu fədakarlıq və bu qəhrəmanlıq unudulmayacaq və tarix yenidən yazılmayacaq.

80 il əvvəl biz Kerçdə və Berlində, Marux aşırımında və Kodori dərəsində nasizmlə mübarizə apardıq. İdeyası bütün xalqları məhv etmək olan nasizmlə. Bu mübarizə olmasaydı, xalqımızın tarixi nasizmin pəncəsində amansızcasına aşınardı. Məhz buna görə bu müharibə bizim vətən müharibəmiz olub.

9 mayı, Qələbə Günümüzü təbrik edirəm!", - deyə Şalva Papuaşvili yazır.

## Yeni Roma Papası XIV Leo

Yeni Roma Papası XIV Leonun inauqurasiya mərasimi 18 mayda keçiriləcək. Bu haqda məlumatı Reuters agentliyi Vatikana istinadən yayır.

İnauqurasiyadan sonra Roma Papası rəsmi olaraq öz vəzifəsini yerinə yetirməyə başlayacaq. Agentliyin verdiyi məlumata görə, inauqurasiyadan üç gün sonra XIV Leonun zəvvarlarla rəsmi görüşü olacaq.

***Amerikalı Robert Frensis Prevost kimdir?***

69 yaşlı Robert Frensis Prevost 8 mayda Amerika Birləşmiş Ştatlarında dünyaya gəlmiş ilk Roma Papası olub. O, müəyyən nailiyyətləri olan, dinləmək qabiliyyətinə malik, yaxşı moderator, həm Vatikanın daxili siyasətini, həm də xarici siyasət istiqamətlərini yaxşı bilən bir şəxs kimi tanınır.

Cənab Prevost 14 sentyabr 1955-ci ildə Çikaqo şəhərində anadan olub. 1977-ci ildə Müqəddəs Avqustin adına seminariyaya daxil olub. İlahiyyat dərəcəsindən başqa, riyaziyyatçı diplomuna da sahibdir. 1982-ci ildə rahib təyin edilib və iki il sonra missioner olaraq Peruya göndərilib. 1999-cu ildə Çikaqoya qayıdıb və Orta Qərb Avqustinlilərinə rəhbərlik edib. 2001-ci ildə baş prior vəzifəsinə təyin edilib.

2023-cü ildə Papa Fransisk Prevostu kardinallığa təqdis edib ki, bu da onun Vatikanda yüksəlməsinə səbəb olub. Əvvəllər o, Vatikanın yeddi dikasteriasının, yəni nazirliyinin, üzvü olub.

Robert Frensis Prevost yepiskop kanserliyinə rəhbərlik edib və bu, onu prelatların təyin edilmə məsələsi üzrə əvvəlki papanın müşaviri edib.

***Papa Fransiskin dəyərləndirdiyi insan***

Papa Fransisk təmkinliyi və təvazökarlığı ilə tanınan bu şəxsə xüsusi qiymət verib. Bu şəxs illərdir "periferiyalarda" – son vaxtlara qədər kilsə tərəfindən az diqqət yetirilən ucqar ərazilərdə fəaliyyət göstərirdi.

Çikaqoda anadan olan Prevost ümumilikdə ömrünün iyirmi ilini Peruda keçirib. Orada missionerlik fəaliyyəti göstərərək ölkənin şimalında yerləşən Çiklaio kilisəsinin arxiyepiskop-emeritusu olub. Təcrübəsinə, qlobal baxışına və Vatikan bürokratiyasında naviqasiya qabiliyyətinə əsaslanaraq, Vatikan mütəxəssisləri Prevostu seçkiqabağı amerikalı kardinallar arasında favorit adlandırdılar.

***Başqa amerikalılar arasında ən az amerikalı***

İtalyan gündəlik qəzeti "La Repubblica", bəzi tonuna görə Prevostu "bütün amerikalılar arasında ən az amerikalı" olaraq dəyərləndirib.

Kilsə qanununu haqda dərin bilik ona ilahiyyat məsələlərinə xüsusi həssaslıqla yanaşan mühafizəkar kardinalların hörmətini qazandırıb.

Fransiskin ölümündən sonra Prevost "Kilsədə çox şeyin edilməli olduğunu" qeyd edib.

"Tanrının arzusu həmişə eynidir, lakin onun bugünkü insanlara, gənclərə, kasıblara, siyasətçilərə çatdırılma yolu fərqlidir", - deyə o qeyd edib.

Yeni Roma Ppasını Gürcüstanın Baş naziri İrakli Kobaxidze və Prezident Mixeil Kavelaşvili təbrik ediblər.

## *Avropa Parlamentində QHT-lərlə bağlı növbəti qalmaqal*

"Avropa Parlamenti QHT-lərlə bağlı daha bir qalmaqalı araşdırmağı planlaşdırır" – deyə "Avropalı Mühafizəkar" nəşri məlumat yayıb.

Söhbət "Timmermans Gate" haqdadır. Məlum olub ki, Avropa Komissiyası keçmiş vitse-prezident Frans Timmermansın dövründə QHT-lərə Yaşıl Razılaşmanın dəstəklənməsi məqsədilə 750 milyon dollar ödəyib. Mayın 8-də Avropa Parlamenti bu işlə bağlı xüsusi istintaq komitəsinin yaradılması üçün səsvermə keçirməli idi, lakin Avropa Xalq Partiyasının təşəbbüsü ilə səsvermə gələn aya qədər təxirə salınıb. Avropa Parlamentindəki ən böyük siyasi qrup Büdcəyə Nəzarət Komitəsində xüsusi işçi qrupu yaradaraq QHT qalmaqalını araşdırmaq istəyir. Paralel olaraq, QHT-lərin gizli maliyyələşdirilməsini və bununla bağlı qalmaqalları araşdırmaq üçün Avropa Vətənpərvərlər Qrupu Şəffaflıq və Hesabatlılıq Komitəsinin yaradılmasını tələb etmək üçün artıq kifayət qədər imza toplayıb.

ВСЕ НОВОСТИ НА 24 СТРАНИЦАХ
Вечерний Тбилиси

*9–15 may 2025-ci il* "VEÇERNİY TBİLİSİ"

Ən məşhur səyahət platformalarından biri olan "Expedia"nın məlumatına görə, Gürcüstanın paytaxtı Tbilisi 2025-ci ildə dünya şəhərləri arasında üçüncü ən populyar turizm məkanıdır. Amerikanın qlobal turizm şirkəti "Expedia" 2024-cü ilin dekabrından 2025-ci ilin martına qədər yay tətili sifarişlərinin statistikasını ötən ilin eyni dövrü ilə müqayisə edib. Şirkət qeyd edib ki, bu müddət ərzində Tbilisiyə səfərlər üçün sifarişlərin sayı 145 faiz artıb. Qeyd olunur ki, "səyahətçilər şəhərin mədəniyyətinə, gecə həyatına və əyləncəsinə qərq olurlar". Birinci və ikinci yerdə İsveçrənin Sürix və Bazel şəhərləridir. Sürixə sifarişlər 225 faiz, Bazelə isə 185 faiz artıb.

"Expedia Group" Amerikanın qlobal turist şirkətidir. Şirkət əsasən səyahət təşkil saytlarını əhatə edir. Şirkətin dünya üzrə 68 milyondan çox müştərisi var və 70-dən çox ölkədə 200-dən çox onlayn sifariş saytına malikdir.

SAĞLAMLIĞIMIZI QORUYAQ

# MEYVƏ VƏ TƏRƏVƏZLƏRİN XÜSUSİYYƏTLƏRİ, İNSAN ORQANİZMİNƏ FAYDALARI VƏ ZƏRƏRLƏRİ

*(Əvvəli 9 may tarixli sayımızda)*

## Ananas



Bizim üçün olduqca qeyri-adi və dadlı meyvə - ananas bromeliyakimilər fəsiləsinə aid bitkidir. Bitkinin növlərindən biri - ananas comosus – mühüm meyvə məhsuludur və tropik ölkələrdə becərilir. Bitkinin hündürlüyü 40–120 sm-dir. Qalın və uzunluğu 50–70 sm olan yarpaqlara malikdir. Meyvə qalın qabıqla örtülmüş sarımtıl-ağ rənli və xoş ətrlidir.

Ananas təxminən 4 min il əvvəl Parana hövzəsində (Cənubi Amerika) yaşayan Tupi-Quarani hinduları tərəfindən becərilib. Tədricən, ananas Cənubi və Mərkəzi Amerikaya yayılıb və hətta toxumsuz növləri də əldə edilib. Antil adalarının sakinləri ananas meyvəsini yemək məhsulu olaraq istifadə ediblər, şirəsindən içkilər hazırlayıblar, liflərdən isə ip və paltar düzəldiblər. Avropalılar ananasla məhz bu ərazilərdə tanış olublar. 1493-cü ilin noyabrında Kristofer Kolumb onu Qvadelupa, Haiti və Yamayka adalarından İspaniyaya aparıb. Avropa dövlətləri ananas tinglərini dünyanın bütün tropik bölgələrində sürətlə yayıblar: XVI əsrdə portuqaliyalılar və ispanyalılar onu Cənubi Amerika, Azor adaları, Qərbi Afrika, Madaqaskar, Hindistan, Çin və Cənub-Şərqi Asiya, o cümlədən Filippindəki müstəmləkələrində becəriblər.

***Ananasın tərkibində birçox mineral və vitamin var ki, buna görə meyvə insan organizmi üçün olduqca faydalıdır.*** Meyvənin tərkibində B1, B2, B6, C, A vitaminləri, dəmir, fosfor, kalium, maqnezium, kalsium, manqan, natrium elementləri var. Bundan əlavə, ananasda, xüsusilə gövdəsində bromelain fermenti var. Bromelain zülallarda peptid bağlarının hüceyrədaxili və hüceyrədənkənar parçalanmasını kataliz edən proteolitik fermentlər sinfinə aiddir. İnsan orqanizmində proteazlar bir sıra mühüm funksiyaları yerinə yetirir: həzmi təmin edir, hüceyrələrin bölünməsi, böyüməsi və ölümü, zülal birləşmələrinin sintezi və parçalanması proseslərini tənzimləyir.

Ananas diabetin inkişafının qarşısını alır, sonsuzluğu müalicə edir, ürək-damar xəstəliklərinin qarşısını alır, damarları gücləndirir, astmaya qarşı faydalıdır, sinir sistemini sakitləşdirir, qaraciyər xəstəliklərinin qarşısını alır. Bu meyvə həzm sistemini stimullaşdırır, pankreas xəstəliklərinin simptomlarını aradan qaldırır. Ananasın tərkibində demək olar ki, heç bir yağ yoxdur və kalori miqdarı 100 qr üçün cəmi 48 kkal təşkil edir. Bromelain müntəzəm istifadə edildikdə dərinin təbii kollagen istehsalını artırdığına inanılır. Artan kollagen səviyyələri ilə dərinin elastikliyi və möhkəmliyi yaxşılaşır, daha gənc bir görünüş təmin edilir. Bu təsir həm də yaşla bağlı ümumi problem olan incə xətt və qırışları azaltmağa kömək edir. Tropik meyvə alarkən nəzərə almaq lazımdır ki, yetişmiş ananas yetişməmiş ananasdan 3-4 dəfə daha faydalı xüsusiyyətlərə malikdir.

***Amma faydalarından başqa ananasın zərərli xüsusiyyətləri də var.*** Mədə turşuluğu yüksək olan, qastrit və xorası olan insanlar, həmçinin kəskin mərhələdə bağırsaq və ya qaraciyər xəstəlikləri olan xəstələr bu şirin və dadlı meyvədən tez-tez istifadə etməkdən çəkinməlidirlər. Nadir hallarda, ananasdan allergiya baş verir; 5-6 yaşa qədər uşaqlara ehtiyatla verilməlidir. Ananasın nüvəsi, demək olar ki, həzm olunmayan qaba lifdir. Ancaq bir çox faydalı maddələrin, o cümlədən bromelain fermentinin cəmləşdiyi dəqiqdir. Özünü yeyə bilərsiniz, ancaq bağırsaqları zədələməmək üçün nazik dilimlərdə və az-az. Məsələn, sıyıqlarınıza əlavə edə bilərsiniz. Antibiotiklər, antikoaqulyantlar, qan durulaşdırıcılar, qıcolma əleyhinə dərmanlar qəbul edən insanlar ananasdan çox istifadə etməməlidirlər. Bromelain qan üzərində antiplatelet təsir göstərə bilər, qanaxma riskini həddindən artıq artırır.

# GÖRKƏMLİ ŞAİR-TƏDQİQATÇI YUSİF YUSİFLİNİN ANIM GÜNÜ QEYD OLUNUB



Gürcüstan Azərbaycanlıları Konqresində (GAK) görkəmli şair-tədqiqatçı, maarif fədaisi, Yusif Yusiflinin anım gününə həsr olunmuş tədbir keçirilib. Tədbiri giriş sözü ilə GAK-ın sədri açaraq tədbir iştirakçılarını salamladı və onlara tədbirə qatıldıqlarına görə öz təşəkkürünü bildirdi. O, qeyd etdi ki, "mən bu gün Yusif müəllimin oğlu Hüseyn Yusubov kimi yox GAK-ın sədri olaraq, 60 illik fəaliyyəti dövründə minlərlə gəncin təlim-tərbiyəsinin formalaşmasına, ziyalılar nəslinin yetişməsinə ömrünü həsr etmiş Yusif Yusiflinin yetirmələrindən biri kimi gəlmişəm".

Sonra o, sözü tədbirin aparıcısı Qullar ictimai məktəbinin direktoru Hümbət Hüseynova verdi. Hümbət müəllim Yusif müəllimin həyatı, pedaqoji fəaliyyəti və yaradıcılığı haqqında tədbir iştirakçılarına ətraflı məlumat verdi.

Marneuli təhsil-resurs mərkəzinin rəhbəri və qubernator müavini vəzifələrində işləmiş Vaqif Mustafayev, Gürcüstan Birləşmiş Aşıqlar İttifaqının sədri Xəlil Hüseynov, yazıçı - publisist Əli Abbas, ziyalı Hacı Səyyad Xəlilov, şair Lətif Ağaoğlu, şair Aslan Gorarxlı, fotoqraf, "Gürcüstan" qəzetinin əməkdaşı Nadir Bayramlı, ziyalı Yusif Məmmədov, şair Əflatun Hüseynoğlu, yazıçı Mustafa Sədioğlu, sair Qurbanəli İsgəndəroğlu, GAK-ın əməkdaşı İbrahimxəlil Məhəmmədəlioğlu, "Gürcüstan" qəzetinin bölgə müxbiri Şamil Ziyadəliyev çıxış edərək Yusif Yusifli ilə bağlı xatirələrini söylədilər, onun gürcülər və azərbaycanlılar arasında bir dostluq körpüsü olduğunu vurğuladılar.





Tədbirdə ustad aşıq Nurəddinin yadigarı aşıq Həvəskar Qurbanov Yusif müəllim haqqında xatirələrini danışdı və Yusif müəlimin şeirlərinə bəstələdiyi aşıq havalarını ifa etdi. Onun məlahətli ifası tədbir iştirakçıları tərəfindən böyük rəğbətlə qarşılandı.

AZTV-nin Gürcüstan üzrə təmsilçisi Ruslan Həsənovun rəhbərlik etdiyi çəkiliş qrupu isə Yusif Yusifliyə həsr olunmuş veriliş hazırladı.

**Şamil Ziyadəliyev,**
**"Gürcüstan"ın xüsusi müxbirii**

*Əməkdaşlıq*

# GÜRCÜSTAN VƏ AZƏRBAYCAN ARASINDA AQRAR SAHƏDƏ ƏMƏKDAŞLIQ İMKANLARI MÜZAKİRƏ OLUNUB

Gürcüstanın ətraf mühitin mühafizəsi və kənd təsərrüfatı naziri Davit Sonqulaşvili Azərbaycana səfər edib.

Bu barədə Ətraf Mühitin Mühafizəsi və Kənd Təsərrüfatı Nazirliyindən bildirilib.

Nazir Bakı Ekspo Mərkəzində keçirilən "Caspian Agro" sərgisinə qatılıb. Gürcüstan builki sərgidə milli pavilyonla təmsil olunub. Ziyarətçilərə Gürcüstan istehsalçılarının şərab və konserv məhsulları, konditer məmulatları, quru meyvələr və orqanik şirələri təqdim edilib.

Səfər zamanı Azərbaycan kənd təsərrüfatı nazirinin müavini Elçin Zeynalovla Davit Sonqulaşvili arasında görüş baş tutub.

Görüşdə iki ölkə arasında aqrar sahədə əməkdaşlıq imkanları müzakirə olunub. Tərəflər aqrar sahədə əməkdaşlığın hüquqi-müqavilə bazasının gücləndirilməsi, kənd təsərrüfatı üzrə birgə İşçi Qrupun yaradılması, ixrac potensialı yüksək olan məhsullarla bağlı informasiya mübadiləsinin aparılması, kənd təsərrüfatı və qida məhsullarının ticarət dövriyyəsinin artırılması, iş adamları arasında əlaqələrin genişləndirilməsi, hər iki ölkədən olan sahibkarların kənd təsərrüfatı ilə bağlı sərgilərdə aktiv iştirakı, müasir texnologiyaların transferi və aqrar sahədə elmi-tədqiqat və təhsil üzrə təcrübə proqramlarının həyata keçirilməsi, transsərhəd xəstəliklər və zərərvericilərlə mübarizə sahəsində birgə fəaliyyət məsələlərini müzakirə ediblər.



# "HAMLET QONAŞVİLİDƏN SONRA HEÇ KİM BU MAHNINI BELƏ OXUMAYIB VƏ İNSANLAR "SEVİNCDƏN NƏ EDƏCƏYİMİ BİLMƏDİM" DEYİRLƏR"

Azərbaycanın Diasporla İş üzrə Dövlət Komitəsinin Tbilisidə fəaliyyət göstərən "Alyans" Gənclər Mərkəzinin "Azərbaycan həqiqətlərinin və mədəni irsinin Gürcüstanda təbliği" layihəsi çərçivəsində "Kviris Palitra" (Həftənin Palitrası) qəzetində dərc olunmuş məqələnin tərcüməsini nəzərinizə çatdırırıq:

***"Azərbaycanlı musiqiçinin gürcü dilində mahnısı gürcüləri ağlatdı". "Hamlet Qonaşvilidən sonra bu mahnının belə ifa edildiyini eşitməmişdim", "O səs haradan gəldi?! Nə möcüzədir..." - bu cür qiymətləndirmələr 24 yaşlı Şaban Məmmədovun "Xalxuri" layihəsində "Gecikiblər" ifasından sonra olub. İfaçının özü belə bir münasibət gözləmədiyini, onun uğur qazanmasında "Şavnabada" ansamblının böyük töhfə verdiyini deyən isti qiymətləndirmələrdən xoş təəccüblənir. "Mən ikiqat şadam ki, indi tanrım Hamlet Qonaşvilinin mahnısını ifa etmişəm və ictimaiyyət onu çox bəyənib. "Heç vaxt bu qədər xoşbəxt olmamışdım", — Şaban Məmmədov gürcü mahnısına münasibətindən, hədəflərindən və planlarından geniş danışır.***

— Valideynlərim məni təhsil almaq üçün "Candar" məktəbinə göndəriblər. Çox keçmədən məktəb direktoru valideynlərimə məni Tbilisidəki kor və zəif görənlər üçün dövlət məktəbinə aparmağı tövsiyə etdi. Orada təhsilimi aldım və gürcü dilini öyrəndim.

**—Məncə, siz dövlət dilini yaxşı bilirsiniz...**

—Azərbaycan məktəblərində gürcü dili də tədris olunur, amma dövlət dilini öyrənməyin ən yaxşı yolu gürcü məktəbində olur. Musiqiyə gəlincə, o, mənim həyatıma danışa bildiyimdən çox tez daxil olub.

7 aylıq olarkən həkimlərin səhlənkarlığı ucbatından məndə sepsis yaranıb. İlk əməliyyatımı ediləndə 9 aylıq olmuşam və görmə qabiliyyətimi itirmişəm. Deyəsən, bundan sonra dünyanı eşitmə vasitəsilə dərk etməyə çalışdım. Mənim üçün hər şey musiqi idi: insanların danışığı, quşların cikkiltisi, yarpaqların xışıltısı, küləyin, yağışın səsi... Hər şeyi ürəyimlə dinləyib müşahidə edirdim, melodiya axtarırdım. Müəllimim mənə Hamlet Qonaşvilinin "Tibatvinin günəşi"ni dinləməyə vadar edəndə birinci sinifdə oxuyurdum və yuxulayırdım. O vaxtdan bəri tez-tez bu mahnını yuxuda eşidirəm. Daim belə bir melodiya eşitmək arzusunda idim. Oxumağı və yazmağı öyrənəndə onun haqqında bəzi məlumatlar öyrənməyə çalışdım.

6 yaşımdan oyuncaq klaviatura alətində melodiyalar bəstələməyə başladım. Valideynlərim mənə olan bu marağı görüb dedilər ki, əgər müğənniliklə məşğul olmaq istəsəm, mənə əsl rəqəmsal piano alıb, məni musiqi müəlliminin yanına aparacaqlar. Sözlərinə əməl etdilər və mənim musiqi karyeram belə başladı. İlk müəllimim olan Amiran Naskidaşvilini görmək üçün




məni Marneuli Mədəniyyət Mərkəzinə apardılar. İlk dəfə səhnəyə çıxmağım onun sayəsində oldu. Sonra Batumi Beynəlxalq Müsabiqə-Festivalında ən yüksək mükafatı - Qran Prini qazandım. "Xalxuri" layihəsi haqqında Marneuli Bələdiyyəsinin Mədəniyyət Mərkəzinin direktorundan öyrəndim. Mənə dedi ki, Bolnisidə musiqi müsabiqəsi keçirilir. Çıxdım və birinci turda iştirakçılar arasında oldum... Bundan sonra *"Gecikiblər"* mahnısını oxumağı qarşıma məqsəd qoydum.

Qonaşvilinin bu mahnısını çoxları oxuyub, amma məndə Hamlet xəttinin əskik olduğunu hiss edirdim. Mənim bərpa etmək istədiyim budur. Bu mahnının o qədər də melismatikası yoxdur. Şərhlərdə oxuyanda ki, Hamlet Qonaşvilidən sonra heç kim bu mahnını belə ifa etməyib, o qədər sevindim ki, nə edəcəyimi bilmədim. Məqsədim Hamlet Qonaşvilini mümkün qədər canlandırmaqdır. Musiqidə ilahiləşdirə biləcəyim biri varsa, o da bu insandır...

**— Gürcü Çoxa sizin üçün nə deməkdir?**

— Çoxanı çox sevirəm, bu mənə fərqli bir enerji verir. Mən bunu sadəcə gürcü xalq mahnısı ifa etdiyim üçün geyinməmişəm; Keçən il hətta Fransada keçirilən yarışmada da çoxa geyinmişdim. Hamlet də məni bunun üçün ruhlandırdı. Nə desəm də, nə edirəmsə də, axırda onun yanına gedirəm.

**— Yəqin ki, gürcü ədəbiyyatını və tarixini yaxşı bilirsiniz...**

— Əlbəttə. Mən introvertəm, təkliyi və oxumağı xoşlayıram. Brayl əlifbası ilə mətni oxuyuram. Audiokitablara da qulaq asıram.

**—Yəqin ki, sevdiyiniz yazıçı var...**

—Nodar Dumbadzedən dəli olmuşam, "Günəşi görürəm"i bir neçə dəfə oxumuşam. "Ağ bayraqlar"ı ildə iki dəfə oxuyuram. "Mən, nənəm, İliko və İlarion"u bir neçə dəfə oxumuşam. Revaz İnanişvilinin əsərlərini də bəyənirəm, Vaja-Pşavelanın, xüsusən də onun "Ev sahibi və qonaq" əsəri beynimdə dəfələrlə canlandırılıb, amma Dumbadze hələ də mənim üçün müqayisə olunmazdır.

**— Son vaxtlar deyəsən, azərbaycanlılar gürcülərlə daha fəal ayaqlaşırlar.**

— Gürcü və Azərbaycan xalqları arasında əsrlər boyu qardaşlıq əlaqələri olub. Sadəcə, sovet dönəmində bizə tarixi başqa cür öyrədəndə, süni şəkildə dil baryeri yaradanda sındırılmış kimi görünürdü. O vaxtdan gürcü dili yeganə dövlət dilinə çevrildi və Gürcüstan hökuməti bizə lazımi diqqət yetirdi, köhnə münasibətlər bərpa olundu. Mən Azərbaycan icmasının nümayəndəsi kimi həm dövlət, həm də gürcü xalqı tərəfindən böyük dəstək və həmrəylik görürəm.

Gürcülər sizi qan qohumu kimi qəbul edə bilər. Onda siz də bu sevgiyə borclu olduğunuzu hiss edirsiniz.

**—Ailə üzvləriniz gürcü dilini bilirmi?**

—Valideynlərim və iki böyük bacım var. Ailə dəstəyi mənim üçün çox önəmlidir və mən heç vaxt onun əskikliyini hiss etməmişəm. Ailə üzvlərim gürcü dilini yaxşı bilir, atam hərbçi olub və təbii ki, dövlət dilini yaxşı bilmək onun üçün vacib idi. Yeri gəlmişkən, anamın gözəl səsi var, babam isə qarmonda ifa edirdi.

**— Mahnı oxumaqdan, kitab oxumaqdan başqa nə ilə maraqlanırsınız?**

—Səs kursları, hətta dublyaj filmləri də keçdim, amma sonra bu işdən vaz keçdim, uzun mətnləri əzbərləmək çox zəhmət tələb etdi.

**—Şaban, dünyanı necə təsəvvür edirsən?**

—Qara və ağ rəngdə.

**—Mahnının rəngi varmı?**

—Bəli, mahnı rəngarəngdir...

**Xatuna Baxturidze.**

# HƏFTƏNİN SEÇİLMİŞLƏRİ

## TARİXDƏ NÖVBƏTİ HƏFTƏ




**16 may**

•1916—Sykes-Picot razılaşması ilə Osmanlı torpaqları Britaniya və Fransa arasında bölünüb. Fransa – Suriya, Livan və Cənubi Anadolunun bəzi bölgələrində nüfuz sahəsi əldə etdi. Britaniya – İraq, İordaniya və Fələstində nüfuz sahəsi qurub.

• 1929 —İlk Akademiya Mükafatları (Oskar) təqdim edilib.

•1966—Çində "Mədəni İnqilab"ın başlandığı elan edilib. Bu inqilab Çin Xalq Respublikasının lideri Mao Tszedun tərəfindən başladılıb və məqsədi Çin Kommunist Partiyası daxilindəki kapitalist meyilli qüvvələri aradan qaldırmaq və Mao ideologiyasını gücləndirmək idi. Mədəni İnqilab 1976-cı ildə Maonun ölümündən sonra sona çatıb və sonradan rəsmi şəkildə səhv addım kimi tanınıb.

• 1975 — Yapon alpinist Junko Tabei Everest zirvəsinə qalxan ilk qadın olub.

**17 may**

•1642—Monreal şəhərinin (Kanadanın ikinci böyük şəhəri) əsası qoyulub.

•1862 — Niko Pirosmani, gürcü boyakarı, anadan olub.

•2010 — **Muxran Maçavariani, gürcü şair, vəfat edib.**

•2015—Saqareco gimnaziyasında dünya və olimpiya çempionu, Sovet İttifaqı çempionu, əməkdar idman ustası Arsen Mekokişvilinin xatirəsinə gənc güləşçilər arasında sərbəst güləş üzrə turnir keçirilmişdir. İlk gündə Saqarecodan Davit Martaşvili və Mixeil Boçoridze çempion olublar. Üçüncü yeri Omar Matiaşvili tutub. İdman birliyi Arsen Mekokişvili mükafatını təsis edib, onu oğlu Qoqi Mekokişvili ağır çəkidə çempion olmuş Tbilisidən Zura Tabatadzeyə təqdim edib. Levan Tediaşvili mükafatı da təsis edilib və bu mükafat Saqarecodan olan Mixeil Boçoridzeyə verilib. Mükafatı qalibə Levan Tediaşvilinin özü təqdim edib.

•Gürcüstanda Ailə Müqəddəsliyi və Valideynlərə Hörmət Günü

**18 may**

•1048 — **Ömər Xəyyam, məşhur fars şairi, riyaziyyatçı, astronom və filosof, anadan olub. Ən çox tanınan əsəri "Rubailər" toplusudur — bu dörd misralı qəzəllərdə həyatın mənası, sevgi, ölüm və dini ehkamlarla bağlı fəlsəfi fikirlər ifadə olunur.**

•1804 — Napoleon Bonapart Fransanın imperatoru elan edilib.

•1989— Litva SSR Ali Soveti Litvanın suverenliyi haqqında bəyannamə qəbul edib.

• Beynəlxalq Muzeylər Günü

**19 may**

•1712— I Pyotr Rusiyanın paytaxtını Moskvadan Sankt-Peterburqa köçürüb.

•1910 — Rəsul Rza, Azərbaycan şairi, anadan olub.

•1919—Mustafa Kamal Atatürk Osmanlı hökumətindən istefa əlaməti olaraq tərəfdarları ilə birlikdə İstanbuldan Samsuna köçür və bu, Türkiyənin Qurtuluş Savaşının başlanğıcı olur.

•Qırğızıstan — Analar Günü

**20 may**

• 1498 — Portuqaliyalı səyyah Vasko da Qama Hindistana çatıb. Bu, Avropadan Hind okeanı vasitəsilə Hindistana aparan ilk dəniz yolunun kəşfi olub.

•1570— Kartoqraf Abraham Ortelius ilk müasir atlası nəşr edib.

•1888 — Seyid Əzim Şirvani, Azərbaycan şairi, vəfat edib.

•1902— **Kuba ABŞ-dan müstəqillik qazanıb. Tomas Estrada Palma ölkənin ilk prezidenti olub.**

**21 may**

•1851— İlk qızıl yatağı Avstraliyada kəşf edilib.

•1904 — Parisdə FİFA təsis olunub. (Beynəlxalq Futbol Federasiyaları Assosiasiyası) — mərkəzi İsveçrənin Sürix şəhərində olan, dünyanın ən böyük idman təşkilatı.

•2004—Gürcüstanın Üzvi Qanununa əsaslanan Gürcüstanın hazırkı dövlət himni "Azadlıq" təqdim edilib. Gürcüstanın dövlət himninin sözləri Davit Maqradzeyə, musiqisi İoseb Keçakmadze tərəfindən himnə çevrilmiş Zakaria Paliaşviliyə məxsusdur.

**22 may**

•1990 — Şimali və Cənubi Yəmənin birləşməsi ilə Yəmən Respublikası yaranıb.

•1960—Çilinin cənubunda 9,5 bal gücündə Valdivia zəlzələsi baş verib, indiyə qədər qeydə alınan ən güclü zəlzələ hesad olunur.

•Beynəlxalq Şerlok Holms Günü hər il 22 may tarixində qeyd olunur. Bu gün, dünya ədəbiyyatının ən məşhur detektiv obrazlarından biri olan Şerlok Holmsa və onun müəllifi Artur Konan Doyla həsr edilir.

•Beynəlxalq Astronomiya Günü

## ÖMƏR XƏYYAM



***İranın, Tacikistanın və Əfqanıstanın milli şairi Ömər Xəyyam 18 may 1048-ci ildə İranın şimal-şərqində yerləşən Nişapur şəhərində anadan olub.*** 8 yaşından riyaziyyat, astronomiya və fəlsəfə sahəsində təhsilə başlayıb. 12 yaşında Nişapur mədrəsəsinə daxil olub. Sonralar Bəlx, Səmərqənd və Buxara mədrəsələrində yunan riyaziyyatçıların əsərləri və astronomiya sahəsində təhsil alıb.

Ömər 16 yaşındaykən Səmərqəndə yerləşib. Sözügedən şəhər o dövrdə elm və mədəniyyət mərkəzlərindən biri idi. Səmərqənddə Xəyyam mədrəsəyə daxil olub. Burada təşkil olunan mübahisələrdə bir neçə çıxışından sonra onun erudisiyası hamını o qədər heyran edib ki, müəllimlik dərəcəsinə yüksəldilib.

1074-cü ildə Ömər Xəyyam Səlcuqlu dövlətinin mərkəzi İsfahana, Səlcuq Sultanı I Məlik şahın sarayına dəvət edilib. Şahın baş vəziri Nizam əl-Mülkun təşəbbüsü və himayəsi ilə Ömər sultanın ruhani müəllimi olub. İki ildən sonra Məlik şah onu dünyanın ən böyük rəsədxanalarından biri olan saray rəsədxanasına rəhbər təyin edib. Ömər Xəyyam bu vəzifədə işləyərkən riyaziyyat üzrə təhsilini davam etdirməklə yanaşı, həm də məşhur astronom olub. Bir qrup alimlə o, Qriqorian təqvimindən daha dəqiq olan günəş təqvimi hazırlayıb.

Lakin 1092-ci ildə himayədarı Sultan Məlik şah və vəzir Nizam əl-Mülkun vəfatı ilə həyatının İsfahan dövrü başa çatıb. Şair Səlcuqluların paytaxtını tərk etməli olub.

Ömər Xəyyam müxtəlif elm sahələrinə dair fərqli əsərlər yazıb. Bunlar: Ziyc-i Məlikşahi (Astronomiya və təqvimə aid, Məlikşaha ithaf edib); Kitabün fi'l Burhan ül Səhhət-i Turuk ül Hind (Cəbrə aid); Risalətün fi Berahin İl Cəbr ve Mukabele (Cəbr və riyaziyyata aid) Elm-i Külliyyat (Ümumi elmlərə aid); Novruznamə (Təqvim və yeni ilin müəyyən edilməsinə aid) və s.

Ömər Xəyyam, bütün həyatı boyu şeir aforizmləri (rübailər) yazıb, bu aforizmlərdə həyat haqqında, insan haqqında, onun bilikləri haqqında ən dərin düşüncələrini həmriyyət və zühdiyyət janrlarında ifadə edib. İllər keçdikcə Xəyyama aid edilən dördlüklərin sayı artıb və 20-ci əsrə qədər 5000-i keçib. Onlardan hansının əslində Xəyyama aid olduğunu dəqiq müəyyən etmək demək olar ki, mümkün deyil.

Ömər Xəyyam 4 dekabr 1131-ci ildə doğma şəhəri Nişapurda vəfat edib.

## MUXRAN MAÇAVARİANİ



***Görkəmli gürcü şair, publisist və ictimai xadim Muxran Maçavariani 12 aprel 1929-cu ildə İmeretinin Arqveti kəndində anadan olub.*** Ali təhsilini Tbilisi Dövlət Universitetində alıb. Ədəbi fəaliyyətə 1952-ci ildə universitetin ədəbi dərnəyinin illik almanaxı "Pirveli Sxivi"də ilk şeirlərini dərc etməklə başlayıb.

1955-ci ildə ilk şeirlər toplusu "Leksebi"ni (Şeirlər) nəşr edib. 1958-ci ildə "Tsiteli mze da mtsvane balaxi" (Qırmızı Günəş və Yaşıl Ot) və "Siçume uşenod" (Sənsiz Sükut) adlı iki şeirlər toplusu işıq üzü görüb. "Sənsiz Sükut" toplusu rus şairi Yevgeni Yevtuşenko tərəfindən rus dilinə tərcümə edilib və bu əsər Maçavarianiyə 1959-cu ildə VII Gənclər və Tələbələrin Dünya Festivalının laureatı adını qazandırıb.

Maçavariani ictimai fəaliyyət də göstərib. O, 1957–1963-cü illərdə "Tsiskari" jurnalının poeziya şöbəsinin müdiri, 1963–1964-cü illərdə "Pioneri" jurnalının baş redaktoru, 1967–1982-ci illərdə "Dila" jurnalının baş redaktoru və 1982–1988-ci illərdə "Saunci" almanaxının baş redaktoru vəzifələrində çalışıb. 1988–1992-ci illərdə Gürcüstan Yazıçılar İttifaqının sədri olub. 1990–1992-ci illərdə Gürcüstan Respublikası Ali Sovetinin üzvü kimi fəaliyyət göstərib və 1991-ci il aprelin 9-da Gürcüstanın dövlət müstəqilliyinin bərpası aktını imzalayanlardan biri olub.

Maçavarianinin poeziyası vətənpərvərlik, milli ruh və ictimai məsuliyyət mövzularını əhatə edir. Onun şeirləri gürcü xalqının tarixi və mədəniyyətinə dərin bağlılığını əks etdirir. Əsərləri rus, ingilis, alman, fransız, bolqar, çex və digər dillərə tərcümə olunub.

Maçavariani Gürcüstanda və xaricdə bir çox mükafata layiq görülüb: "Şərəf" Nişanı ordeni, 1966; "Qırmızı Əmək Bayrağı" ordeni, 1979; Şota Rustaveli adına Dövlət Mükafatı, 1987; Kiril və Mefodi ordeni (Bolqarıstan), 1989; Akaki Tsereteli adına Mükafat, 1990; Məmməd Abaşidze adına Mükafat, 1999 və s.

Şairin doğulduğu Arqveti kəndində onun xatirəsinə həsr olunmuş ev-muzeyi fəaliyyət göstərir. Muzeydə Maçavarianinin həyat və yaradıcılığına dair 300-dən çox eksponat sərgilənir.

Muxran Maçavariani 17 may 2010-cu ildə 85 yaşında vəfat edib. O, Mtatsminda Panteonunda, Nodar Dumbadze və Yakob Nikoladzenin məzarlarının yaxınlığında dəfn olunub.

## KUBA



Kuba Karib hövzəsində yerləşən ada ölkəsidir. Ölkə Kuba, Xuventud və Böyük Antil adaları qrupuna aid 1600-dən çox adanı əhatə edir. Şimal-şərqdən Atlantik okeanı, cənubda Karib dənizi ilə əhatə olunur. Adanı Şimali Amerika qitəsindən qərbdə Yukatan boğazı, şimalda isə Florida boğazı ayırır. Ölkənin paytaxtı və ən böyük şəhəri Havanadır. Böyük şəhərləri Santyaqo-de-Kuba və Kamaqueydir. Ölkənin rəsmi dili ispan dilidir.

**Tarixi:** XVI əsrin sonlarına kimi Kubada ovçuluq və əkinçilik ilə məşğul olan müxtəlif hindu qəbilələri yaşayıb. 28 oktyabr 1492-ci ildə Kuba Kristofer Kolumb tərəfindən kəşf edilib. 1511-ci ildə ada Dieqo Velaskes tərəfindən işğal edilərək, İspaniyanın müstəmləkəsinə çevirilib.

XIX əsrin əvvəlində Kubada Böyük Fransız İnqilabından ilhamlanaraq İspaniyadan müstəqillik uğrunda mübarizə başlayıb. XIX əsrin sonunda, 1898-ci ildə ABŞ-nin müharibəyə daxil olması və İspaniyanı məğlub etməsi nəticəsində adalar üzərində hakimiyyətini itirib. Kuba formal müstəqil qəbul edilsə də, həqiqətdə ABŞ-dən asılı bir dövlətə çevirilib.

Birinci Dünya müharibəsi zamanı Kuba 7 aprel 1917-ci ildə Almaniyaya müharibə elan edib, lakin ölkənin silahli qüvvələri birbaşa döyüşlərə qoşulmayıb.

Mehvər dövlətlərinin SSRİ-yə hücumundan sonra Kubada həmin ölkəyə kömək kampaniyası başlayıb. 24 iyul 1941-ci ildə ölkənin paytaxtı Havanada SSRİ-yə dəstək mitinqi keçirilib, eləcə də həmin ölkəyə 40 min kisə qənd, 1 milyon siqar və digər mümkün yardımların göndərilməsi barədə qərar qəbul edilib.

8 dekabr 1941-ci ildə Kuba Yaponiyaya, 11 dekabr 1941-ci ildə isə faşist Almaniyası və İtaliyaya müharibə elan edib. Kuba silahlı qüvvələri İkinci Dünya Müharibəsində bilavasitə iştirak etməyib, lakin ölkə ABŞ-nin hərbi-strateji xammalının tədarükündə iştirak edib.

1959-cu ildə Kubada Fidel Kastro və məşhur inqlabçı Çe-Qevaranın rəhbərliyi ilə sosialist inqlabı baş verib. ABŞ bundan narazı olub və Kubaya hərbi müdaxiləyə hazırlaşıb, lakin SSRİ ölkədə öz nüvvə raketlərini yerləşdirib. Bu "Karib Böhranı" kimi tarixə keçən və bəşəri nüvvə müharibəsi təhlükəsi ilə üz-üzə qoyan hadisə hər iki tərəfin geri addım atması ilə həll olub.

**Coğrafiyası:** Ölkə ərazisinin təxminən üçdə birini yüksəkliklər və dağlar təşkil edir. Üç əsas dağ silsiləsi qərbdə Kordilyera de Quaniquaniko, mərkəzi hissədə Escambray və şərqdə Sierra Maestradır. Ən yüksək dağ silsiləsi, Sierra Maestra, cənub-şərq sahili boyunca 250 km uzanır.

**İqtisadiyyatı:** Kuba iqtisadiyyatının əsas sektoru şəkər sənayesidir. Kubanın şəkər zavodlarının gücü gündə 670 min ton şəkər qamışını emal etmək gücündədir (ildə 9-9,5 milyon ton şəkər istehsalı). Kuba şəkər, nikel, tütün, dəniz məhsulları, tibbi məhsullar, sitrus meyvələri və qəhvə ixrac edir. Kuba neft məhsulları, qida, sənaye avadanlıqları və kimya məhsulları idxal edir. Kubanın özünün sənaye malları istehsalı cüzidir, istehsal olunanlar isə keyfiyyətsizdir.




**Dövlət quruluşu və siyasəti:** Kuba prezident-parlament respublikasıdır. Kuba Kommunist Partiyası, Konstitusiyaya görə, Kuba dövlətinin aparıcı qüvvəsidir. İcra hakimiyyətini parlament təfəfindən seçilən prezident həyata keçirir. Ölkənin indiki prezidenti Miqel Dias Kaneldir.

**Mədəniyyəti:** Dərin mənəvi zənginliyinə və dünya mədəniyyətinə verdiyi töhfəyə görə demək olar ki, Kuba öz tarixi boyu, XVI əsrdən habaneranın gəlişi ilə bu günə qədər ən çox musiqi janrına malik ölkələrdən birinə çevrilib. Milli Kuba ədəbiyyatının başlanğıcında məhəbbət, fəlsəfi və vətəndaş-vətənpərvərlik şeirlərinin müəllifi Xose Mariya Heredia (1803-1839) dayanırdı.

**Təhsili və elmi:** Kubada 9487 ibtidai məktəb, 1943 orta məktəb və 48 ali təhsil müəssisəsi var. Məktəb əsas mədəniyyət müəssisəsi hesab olunur. Əhalinin hər min nəfərinə ümumilikdə 17,8 müəllim düşür.

GÜRCÜSTAN
Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება
"საქართველო"
"S A K A R T V E L O"
Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა



İDMAN — İDMAN

## GÜRCÜSTAN HÖKUMƏTİ MİLLİ HƏNDBOL KOMANDASINA BİR MİLYON LARİ VERƏCƏK



***Gürcüstan hökumətinin qərarına əsasən, ölkənin milli həndbol komandası Avropa çempionatına vəsiqə qazandığına görə bir milyon lari məbləğində pul mükafatı alacaq.***

Bu barədə hökumət administrasiyası məlumat yayıb.

Məlumata görə, müvafiq fərmanı Baş nazir İrakli Kobaxidze artıq imzalayıb.

Bildirilib ki, "Tbilisi Arena"da keçirilən həlledici qarşılaşmada Gürcüstan millisi Yunanıstan yığmasını 29:26 hesabı ilə məğlub edərək ardıcıl olaraq ikinci dəfə Avropa çempionatında iştirak hüququ qazanıb.

Qarşılaşmanı Gürcüstan prezidenti və hökumət üzvləri ilə birlikdə izləyən Baş nazir İrakli Kobaxidze oyundan sonra komandanın üzvlərinə təşəkkür edib, onları qələbə münasibətilə təbrik edərək gələcəkdə uğurlar arzulayıb.

Qeyd edək ki, Gürcüstan millisi seçmə mərhələnin son oyununu mayın 11-də İslandiyada keçirilib. Avropa çempionatı isə yanvarın 15-də başlayacaq. Oyuna İsveç, Danimarka və Norveç ev sahibliyi edəcək.

SAĞLAMLIQ

## GÜLÜŞÜN SAĞLAMLIĞA FAYDALARI



***Gülüş həm əhvalı yüksəldə bilir, həm də bədənin xəstəliklərlə mübarizə aparmasına kömək edir.***

Bu barədə **kp.ru** saytı sorğuda iştirak edən ekspertlərə istinadən məlumat yayıb.

Tibbi müşahidəçi Oksana Naralenkova aydınlaşdırıb ki, bu, qaçış və ya məşqdən sonra qan dövranını yaxşılaşdıra və qan damarlarını daha çevik edə bilər. Onun sözlərinə görə, gülüş infarkt və insult riskini azalda bilər.

Bundan əlavə, gülüş burun, boğaz və ağciyərləri virus və bakteriyalardan qoruyan immunoqlobulin A səviyyəsini artırır.

*"Biz gülən zaman beyin fəal işləyir, üzün və bədənin əzələləri bu prosesə cəlb olunur. Nəfəs alma dərinləşir: inhalyasiya uzanır, ekshalasiya isə kəskin və sürətli olur. Bunun sayəsində ağciyərlər "köhnə" havadan tamamilə təmizlənir və orqanlar daha çox oksigen alır. Bu, ürək və qan damarlarının fəaliyyətini yaxşılaşdırır",* - deyə psixoloq, Moskva Dövlət Psixologiya və Təhsil Universitetinin professoru Yelena Çebotareva əlavə edib.

Mütəxəssislər əlavə edib ki, gülüş daxili orqanların fəaliyyətini yaxşılaşdırır və insanları mənəvi bağlarla birləşdirir.

Kolumbiya Universitetinin (ABŞ) alimlərinin kəşfini şərh edən kardioloq Andrey Kondraxin daha əvvəl bildirib ki, qəzəb və digər güclü emosiyalar gələcəkdə infarkt və insult yarada bilər.

## 102 YAŞLI ŞARFFENBERQİN UZUNÖMÜRLÜLÜK SİRRİ



***ABŞ-da qidalanma sahəsində araşdırmaları ilə tanınan 102 yaşlı doktor Con Şarffenberq bir əsri geridə qoymağının sirrini açıqlayıb.***

Şarffenberq bu barədə "Viva Longevity!" Yutub kanalına açıqlamasında deyib.

"Yemək saatlarından başqa yeməkdən, ətdən, doymuş yağların istifadəsindən, siqaret və spirtli içkidən uzaq durmaq, şirniyyatı azaltmaq, xüsusilə 40 yaşından sonra daha hərəkətli olmaq lazımdır", - deyə Şarffenberq bildirib.

## BAŞSAĞLIĞI

Qardabani Bələdiyyəsinin sakinləri Yusif Məmmədov, Nadir Bayramov, Məmməd Məmmədov, Vəli Əliyev, Hüseyn Məmmədov, Vaqif Məmmədov, Mustafa Süleymanov Dmanisi Bələdiyyəsinin aşağı Qarabulaq kənd sakini

**Mübariz Tanrıverdiyevin**

vaxtsız vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin!**



## GÜCLÜ OLMAQ, HƏR ZAMAN SAVAŞMAQ DEYİL...



Foto E.Şahvələdindir.

HADİSƏ

## 45 GÜN ÖNCƏ İTKİN DÜŞƏN AYTAC MƏMMƏDOVANIN CƏSƏDİ TAPILIB



***Özünü Kür çayına atdığı ehtimal edilən Qardabani sakini Aytac Məmmədovanın cəsədi tapılıb.***

Cəsəd, onun düşdüyü ehtimal edilən yerdən təxminən 40-50 metr məsafədə aşkarlanaraq ekspertizaya göndərilib, nəticədə Aytaca məxsus olduğu müəyyən olunub.

Cəsəd Tbilisidə Kür çayına düşən avtomobil və onun içərisindəki sərnişinlərin axtarışı zamanı aşkarlanıb.

## ABUNƏ YAZILMAĞI UNUTMAYAQ !

## "GÜRCÜSTAN" QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏRİN VƏ ABUNƏÇİLƏRİN NƏZƏRİNƏ!

***Hörmətli oxucular!***

"Gürcüstan" qəzeti Sizin sayə-nizdə bir əsrdir ki, davamlı nəşr olunaraq, öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirib, oxuculara sədaqətlə xidmət edir. Mənəvi çırağımız olan qəzetimiz həmişə Sizə arxalanmış, Sizdən ilham almışdır.

"Gürcüstan" qəzeti öz səsi, sözü ilə sələflərin mübariz ruhunu, həmişəyaşar ənənələrini qoruyub saxlayır və beləliklə, aybaay, ilbəil, nəsilbənəsil Gürcüstan azərbaycanlılarının həyat salnaməsiniyaradır, mənəvi dəyərlərimizin zənginləşməsinə töhfələr bəxş edir, milli-mənəvi dəyərlərimizin daşıyıcısı kimi, dilimizin saflığının keşiyində qürur-la dayanır. Qəzetimiz 2020-ci ilin mart ayına qədər 2000 nüsxə ilə nəşr olunurdusa, hal-hazırda qəzetin ya-yım coğrafiyası genişlənmiş, abunə sayı 55 faiz artaraq, 3100 nüsxəyə çatmışdır. Bir əsrdən çox ömrü olan "Gürcüstan" qəzetini yaşatmaq hər birimizin mütləq mənəvi borcudur. 2025-ci ildə "Gürcüstan" qəzetinə abunə olmaq istəyən şəxslərfərdi abunəçilər (adını, soyadını və ünvanını göstərməklə), məktəblər, idarə, müəssisə və təşkilatlar yerlərdə qəzetin müxbirləri ilə və ya **E-mail:Gurcustan_1921@mail.ru** elektron poçtu vasitəsi ilə müqavilə bağlamaqla abunə haqqını qəzetimizin səkkizinci səhifəsində göstərilən bank hesabına köçürə bilərlər.

"Gürcüstan" qəzetinə illik abunə haqqı 20 (iyirmi) laridir. İl ərzində abunəçiyə həftədə bir dəfə olmaqla 50 (əlli) qəzet təqdim ediləcək.

***Milli - mənəvi dəyərlərimizi yaşadan, dilimizin keşiyində duran, varlığımızın göstərcisi olan "Gürcüstan" qəzetini yaşatmaq və ondan bəhrələnmək üçün abunə olmağı unutmayın.***

Qəzetimizə il boyu abunə ola bilərsiz. Abunə müddəti ödəniş tarixindən başlanır. "Gürcüstan" qəzetinin qayğıkeş, əməksevər kollektivi Sizin xidmətinizdə dayanaraq, etimadınızı doğruldacaqdır.

Əvvəlcədən minnətdarlığımızı bildiririk.

**Qeyd:** Qəzetin abunəçiyə vaxtında çatdırılması təmin olunacaq.

**Müdiriyyət.**

**Qəzetin bank hesabı**
**გაზეთის საბანკო ანგარიში**
**შპს „გურჯისტანი“ ს/კ 203863792**
**ანგ. № GE03LB0111185703773000**
**სს ლიბერთი ბანკი SWİFT: LBRTGE22**

Baş redaktor:
Xaləddin YOLÇUYEV

Redaktor müavini:
Binnət MƏMMƏDOV

Redaksiyanın ünvanı:
Tbilisi şəh. Tsereteli pr. 142, I mərtəbə.
E-mail: Gurcustan_1921@mail.ru İNDEKS 66444
Əlaqə telefonu: +995 32 222 04 76

Qəzet "Kolori" nəşriyyatında çap olunur.
Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi müxtəlif ola bilər.